Azərbaycan Respublikasının Səfirliyi
Cakarta

Jl. Mas Putih Blok D 29
Grogol Utara Kebayoran Lama
Jakarta Selatan 12210
Tel: 5491939
Fax: 5491745
E-mail: azerbembjkt@u.net.id

Press-reliz

Azərbaycan Respublikasının Bakı şəhərində 18-19 iyun 2007-ci ildə Demokratiya və İqtisadi İnkişaf Təşkilatının (GUAM) İkinci Sammiti keçirilmişdir.

Tədbirdə Azərbaycanın, Gürcüstanın, Ukraynanın, Litvanın, Polşanın, Rumıniyanın Prezidentləri, Bolqarıstanın Vitse-Prezidenti, Estoniya Parlamentinin Sədr müavini, Moldovanın Baş Naziri, Litvanın İqtisadiyyat Naziri, ABŞ, Yaponiya, ATƏT, YUNESKO, QDİƏT-nin yüksək səviyyəli nümayəndələri və Azərbaycanda akkreditə olunmuş diplomatik nümayəndəliklərin başçıları iştirak etmişlər. Tədbirlərə GUAM üzv dövlətləri iqtisadiyyat, enerji, nəqliyyat, mədəniyyət, təhsil, daxili işlər və turizm nazirlərinin, həmçinin hüquq mühafizə orqanlarının, sərhəd xidmətlərinin və gömrük komitələrinin rəhbərlərinin görüşləri də daxil edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammit iştirakçılarına müraciətində GUAM-ın fəaliyyətinin növbəti mərhələsinə qədəm qoyduğuna diqqəti cəlb etmişdir. "Demokratiya, insan hüquqları, açıq cəmiyyətin qurulması, qanunun aliliyi, beynəlxalq və Avropa təsisatlarına inteqrasiya, iqtisadi islahatlar, iqtisadi imkanların möhkəmləndirilməsi, həyat səviyyəsinin yaxşılaşdırılması – bunlar bizim məqsədimiz və prioritetlərimizdir", sözləri ilə Prezident çıxışını yekunlaşdırmışdır. O, GUAM-ın Avrasiya qitəsindəki regional əməkdaşlıqda getdikcə artan roluna xüsusi diqqət yetirmiş və GUAM-ın qısa müddət ərzində ciddi beynəlxalq təşkilata çevrildiyini vurğulamışdır. Prezident Əliyev GUAM ərazisindəki dondurulmuş münaqişələrin BMT-də müzakirəsi təşəbbüsünə xüsusi diqqət yetirmiş, GUAM-ın məsələ barədə ümumi mövqedən çıxış etməsini təqdirəlayiq hesab etmiş, dondurulmuş münaqişələr məsələsinin BMT Təhlükəsizlik Şurasının gündəliyinə daxil edilməsinin ölkəmizin vacib siyasi və diplomatik uğuru olduğunu demişdir.

Ukrayna Prezidenti Viktor Yuşşenko, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Polşa Prezidenti Lex Kaçzınski, Litva Prezidenti Valdas Adamkus və Moldovanın Baş Naziri Vasile Tarlev də Sammitdə çıxış etmişlər. Ukrayna Prezidenti Viktor Yuşşenko GUAM-dakı rotasiya sisteminə uyğun olaraq prezidentliyi Azərbaycana vermişdir. O, Azərbaycanın təşkilatda prezidentliyinin çox səmərəli olacağına əminliyini bildirmişdir.

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov təşkilatın dörd üzv dövlətləri tərəfindən qəbul edilmiş prinsiplər və məqsədlər əsasında təməlinin qoyulduğunu qeyd etmişdir. O, GUAM-ın bu prinsip və məqsədləri qəbul edən hər bir ölkə üçün açıq olduğunu demişdir.

Sammit zamanı "GUAM: Qitələri yaxınlaşdırır" Bakı Bəyannaməsi dövlət başçıları şurası tərəfindən imzalanmışdır. Sammitdə digər sənədlər də - "Məhsulların Beynəlxalq Dövriyyəsi barədə Saziş", "Nüvə və Radiasiya təhlükəsizliyi məsələlərində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Memorandum" və "2007-2010-cu illərdə mədəniyyət sahəsində əməkdaşlıq barədə Protokol" imzalanmışdır.

Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova arasında əməkdaşlıq 10 oktyabr 1997-ci ildə Strasburqda əsası qoyulmuş GUAM məşvərətçi forumu ilə başlanmış və təşkilat bu ölkələrin adlarının ilk hərfləri ilə adlandırılmışdır.

20 iyun 2007-ci il